# المختصر في آداب زيارة المسجد النبوي وأحكامها )للجمعية(

# Məscidun-Nəbəvini ziyarət etməyin ədəbləri və hökmləri haqqında qısa xülasə

## Məscidun-Nəbəvini ziyarət etməyin ədəbləri və hökmləri haqqında qısa xülasə

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

## Məscidun-Nəbəvi ziyarətinin ədəbləri və hökmlərinin xülasəsi

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur! peyğəmbərimiz Muhamməndə, onun ailəsinə və bütün səhabələrinə salat və salam olsun

Daha sonra:

Bu, Məscidun-Nəbəvinin ziyarətinin ədəbləri və hökmləri haqqında qısa bir risalədir. Biz bu risalədə, Məscidun-Nəbəvini ziyarət edən şəxsin ehtiyac duyacağı əsas məsələləri izah etməyə çalışdıq.

Uca Allahdan bu risaləni Öz Kərim Üzü xatirinə (razılığı üçün) ixlaslı etməsini və bununla bütün müsəlmanlara fayda verməsini diləyirik.

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Müxtəlif Dillər üzrə Elmi Komitəsi

## Peyğəmbər ﷺ məscidinin ziyarətinin müxtəsər ədəbləri və əhkamları

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, məscidini ziyarət etmək müstəhəbdir. Bunun müəyyən bir vaxtı yoxdur və bu, həcc əməllərindən

deyil. Hacılara - istər kişi, istərsə də qadın olsun - peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrini və "Bəqi" qəbiristanlığını ziyarət etmək vacib deyil.

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrini ziyarət etmək məqsədi ilə səfərə çıxmaq icazəli deyil. Çünki ibadət məqsədi ilə səfərə çıxmaq qəbirləri ziyarət etmək üçün deyil, yalnız üç məscid üçündür. Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurmuşdur:

«لَا تَشُدُّوا الرِّحَالَ إِلَّا إِلَى ثَلَاثَةِ مَسَاجِدَ: مَسْجِدِي هَذَا، وَالمَسْجِدِ الْحَرَامِ، وَالمَسْجِدِ الأَقْصَى».

"Üç məsciddən başqa heç bir yerə (ibadət məqsədi ilə) səfər etmək olmaz: mənim bu məscidim (peyğəmbərin - sallallahu aleyhi va səlləm - məscidi), "Məscidül-Həram" və "Məscidül-Əqsadır".[1]

Mədinədən uzaqda olan kəsə qəbri ziyarət etmək məqsədi ilə səfərə çıxmaq icazəli deyil. Lakin ona peyğəmbərin şərəfli məscidini ziyarət etmək məqsədi ilə səfərə çıxmaq şəriətə uyğundur. O, məscidə çatdıqda peyğəmbərin, sallallahu aleyhi və səlləm, və səhabələrinin qəbirlərini ziyarət edər. Beləliklə, peyğəmbərin qəbrini ziyarət etməsi, onun, sallallahu aleyhi və səlləm, məscidini ziyarət etməsinə bağlı olur.

[1] Hədisi Buxari: (1189) və Müslim: (827) rəvayət etmişdir. Hədisin ləfzi Müslimə aiddir.

Qadına peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, qəbrini və ya başqasının qəbrini ziyarət etmək şəriətə uyğun deyil, çünki peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, qəbirləri ziyarət edən qadınlara lənət etmişdir. Belə ki, bu ziyarət zamanı onlardan nalə çəkmək, açıq-saçıqlıq etmək və digər şəriətə zidd əməllər baş verə bilər. Lakin onlara istər məsciddə, istərsə də başqa yerlərdə Allah rəsuluna, Allahın salavatı və salamı onun üzərinə olsun, çoxlu salavat və salam demək müstəhəbdir. Çünki qadın harada olmasından asılı olmayaraq, bu, peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, çatdırılır. Belə ki, peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, buyurmuşdur:

«لَا تَجْعَلُوا بُيُوتَكُمْ قُبُورًا، وَلَا تَجْعَلُوا قَبْرِي عِيدًا، وَصَلُّوا عَلَيَّ، فَإِنَّ صَلَاتَكُمْ تَبْلُغُنِي حَيْثُ كُنْتُمْ»،

"Evlərinizi qəbirsanlıqlara və mənim qəbrimi də ziyarətgaha çevirməyin, mənə salavat (salallahu aleyhi va səlləm) deyin, siz harada olsanız belə, sizin mənə dediyiniz salavatlar çatar"[1]. Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«إِنَّ لِلَّهِ مَلَائِكَةً سَيَّاحِينَ فِي الْأَرْضِ يُبَلِّغُونِي مِنْ أُمَّتِي السَّلَامَ».

"Həqiqətən də, Allahın yer üzündə səyahət edən mələkləri vardır ki, ümmətimin salamını mənə çatdırırlar"[2].

---

[1] Hədisi Əbu Davud (2042) rəvayət etmişdir.
[2] Hədisi İmam Əhməd "Müsnəd" (4320) əsərində rəvayət etmişdir.

Peyğəmbər məscidinə daxil olarkən sağ ayağını birinci atması və «Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!» - deməsi müstəhəbdir, necə ki, bu duanı digər məscidlərə daxil olarkən də deyir.

Onun, sallallahu aleyhi və səlləm, məscidinə daxil olmağın xüsusi bir zikri yoxdur.

Bundan sonra iki rükət "Təhiyyətul-məscid" namazı qılır.

Namaz qılınması qadağan olmayan vaxtda isə, hər iki rükətdən bir salam verməklə istədiyi qədər nafilə namazı qıla bilər. Allah rəsulu, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«صَلَاةٌ فِي مَسْجِدِي هَذَا، خَيْرٌ مِنْ أَلْفِ صَلَاةٍ فِيمَا سِوَاهُ، إِلَّا المَسْجِدَ الحَرَامَ».

«Mənim bu məscidimdə qılınan bir namaz, Məscidul-Haram istisna olmaqla, başqa məscidlərdə qılınan min namazdan daha xeyirlidir»[1].

Əgər mümkün olarsa, rovdada – yəni peyğəmbərin, sallallahu aleyhi və səlləm, minbəri ilə hücrəsi arasında olan yerdə – namaz qılmağa səy göstərməlidir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«مَا بَيْنَ بَيْتِي وَمِنْبَرِي رَوْضَةٌ مِنْ رِيَاضِ الْجَنَّةِ».

“Evimlə minbərim arası Cənnət bağlarından bir bağçadır”[2].

[1] Hədisi Buxari (1190) və Müslim (1394) rəvayət etmişdir.
[2] Hədisi Buxari (1195) və Müslim (1390) rəvayət etmişdir.

Əgər bu mümkün olmazsa, o, məscidin istənilən yerində namaz qıla bilər. Bu, camaat namazından başqa hallara aiddir. Camaat namazında isə, bu barədə varid olan ümumi dəlillərə görə, imamın arxasındakı birinci səfə riayət etməlidir.

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, və onun iki yoldaşının qəbrini ziyarət etmək istədikdə:

Onun, sallallahu aleyhi və səlləm, qəbrinin qarşısında ədəb, vüqar və asta səslə dayanıb, sonra ona, sallallahu aleyhi və səlləm, belə salam verməlidir: «Sənə Allahın salamı, rəhməti və bərəkəti olsun, ey Allahın elçisi!». Həmçinin, «Mən şəhadət verirəm ki, sən, həqiqətən də, Allahın elçisisən, sən Quranı insanlara çatdırdın, əmanəti yerinə yetirdin, Allah yolunda həqiqi cihad etdin və ümmətə nəsihət etdin. Allah sənə, ümmətinə görə bir peyğəmbərə öz ümmətinə görə verdiyi - mükafatların ən xeyirlisini versin» - deməsi də caizdir.

Sonra bir qədər sağ tərəfə yönələrək Əbu Bəkr əs-Siddiqə, Allah ondan razı olsun, salam verir.

Sonra bir az da sağa çəkilərək Ömər bin Xəttaba salam verir. İbn Ömər - Allah onların hər ikisindən razı olsun - peyğəmbərə, sallallahu aleyhi və səlləm, və onun iki səhabəsinə salam verdikdə, adətən yalnız bu sözləri: [Əs-Sələmu 'aleykə ya rəsulu-Llah, əs-sələmu 'aleykə ya Əbə Bəkr, əs-sələmu 'aleykə ya əbətəh], «Ey Allahın elçisi! Sənə Allahın salamı olsun, ey Əbu Bəkr! Sənə Allahın salamı

olsun, Ey ata can! Sənə Allahın salamı olsun» - deyib sonra gedərdi.

Peyğəmbərin, sallallahu aleyhi və səlləm, və onun iki yoldaşının qəbrinin yanında uzun müddət dayanmaq və ya dua etmək yaraşmaz. Malik bunu məkruh görmüş və demişdir: "Bu, sələfilərin etmədiyi bir bidətdir. Bu ümmətin sonu, ümmətin əvvəli islah olduğu kimi, islah olmayınca, hec vaxt islah olmayacaqdır".

Amma bəzi ziyarətçilərin peyğəmbərin, sallallahu aleyhi və səlləm, qəbrinin yanında səslərini ucaltmaları və orada uzun müddət dayanmaları şəriətə ziddir. Uca Allah buyurmuşdur:

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَرۡفَعُوٓاْ أَصۡوَٰتَكُمۡ فَوۡقَ صَوۡتِ ٱلنَّبِيِّ وَلَا تَجۡهَرُواْ لَهُۥ بِٱلۡقَوۡلِ كَجَهۡرِ بَعۡضِكُمۡ لِبَعۡضٍ أَن تَحۡبَطَ أَعۡمَٰلُكُمۡ وَأَنتُمۡ لَا تَشۡعُرُونَ 2 إِنَّ ٱلَّذِينَ يَغُضُّونَ أَصۡوَٰتَهُمۡ عِندَ رَسُولِ ٱللَّهِ أُوْلَٰٓئِكَ ٱلَّذِينَ ٱمۡتَحَنَ ٱللَّهُ قُلُوبَهُمۡ لِلتَّقۡوَىٰۚ لَهُم مَّغۡفِرَةٞ وَأَجۡرٌ عَظِيمٌ 3﴾

"Ey iman gətirənlər! Səsinizi peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz batil olar.

Allahın rəsulu yanında səslərini asta çıxaranlar, Allahın qəlblərini təqva üçün sınağa çəkdiyi kimsələrdir. Onlar üçün bağışlanma və böyük mükafat vardır". (Hucurat 49 surəsi, ayə 2-3). Çünki Peyğəmbərin - salləllahu aleyhi va səlləm - qəbrinin yanında uzun müddət dayanmaq və salamı çoxlu

təkrarlamaq orada izdihama, səs-küyə və səslərin yüksəlməsinə səbəb olur. Bu isə Allahın bu muhkəm ayələrdə müsəlmanlar üçün buyurduqlarına ziddir. O - salləllahu aleyhi va səlləm - istər sağlığında, istərsə də vəfatından sonra hörmətə layiqdir. Buna görə də möminə onun qəbrinin yanında şəri ədəbə zidd olan bir şey etmək yaraşmaz.

Eləcə də bəzi ziyarətçilərin və başqalarının üzünü qəbrə tutaraq, əllərini qaldırıb onun qəbrinin yanında dua etmələri - rəsulullahın səhabələri və onlara yaxşılıqda tabe olanların (sələfin) yoluna ziddir. Əksinə, bu, sonradan uydurulmuş bidətlərdəndir.

Eləcə də, bəzi ziyarətçilərin peyğəmbərə, sallallahu aleyhi və səlləm, salam verərkən namaz qılan şəxsin duruşu kimi sağ əlini sol əlinin üzərinə qoyub sinəsinin üstündə və ya altında tutması caiz deyil. Çünki bu, zəlillik, boyun əymə və ibadət halıdır ki, Allahdan başqası üçün edilməz. Necə ki, bunu Hafiz İbn Həcər, rahiməhullah, "Fəth" əsərində alimlərdən nəql etmişdir.

Heç kəsə otağa əl sürtməklə və ya onun ətrafında təvaf etməklə Allaha yaxınlaşmaq, həmçinin peyğəmbərdən, sallallahu aleyhi və səlləm, istəyinin yerinə yetirilməsini, xəstəsinin şəfa tapmasını və sairə buna oxşar şeyləri istəmək icazəli deyil. Çünki bütün bunlar yalnız Uca Allahdan istənilir.

Mədinə şəhərini ziyarət edənin orada olduğu müddətdə Quba məscidini ziyarət edib orada namaz qılması müstəhəbdir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, miniklə də, ayaqla da oraya gedər və orada iki rükət namaz qılardı. Səhl bin Huneyfdən rəvayət olunur ki, Allahın rəsulu, sallallahu aleyhi və səlləm, buyurmuşdur:

«مَنْ تَطَهَّرَ فِي بَيْتِهِ، ثُمَّ أَتَى مَسْجِدَ قُبَاءَ، فَصَلَّى فِيهِ صَلَاةً كَانَ لَهُ كَأَجْرِ عُمْرَةٍ».

«Kim evində dəstəmaz alar, sonra Quba məscidinə gedib namaz qılarsa, ümrə etmiş kimi savab qazanar»[1].

Kişilərin Bəqi qəbiristanlığını - yəni Mədinə qəbiristanlığını - şəhidlərin qəbirlərini və Həmzənin - Allah ondan razı olsun - qəbrini ziyarət etməsi sünnədir. Çünki peyğəmbər, sallallahu aleyhi və səlləm, onları ziyarət edər və onlar üçün dua edərdi. Həmçinin peyğəmbər, sallallahu aleyhi və səlləm, demişdir:

«كُنْتُ نَهَيْتُكُمْ عَنْ زِيَارَةِ الْقُبُورِ فَزُورُوهَا، فَإِنَّهَا تُذَكِّرُكُمِ الْآخِرَةَ».

«Sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, artıq ziyarət edin, çünki o sizə, axirəti xatırladır»[2].

Onları ziyarət edərkən də, digər qəbirləri ziyarət etdiyi kimi belə deyər: [əs-Sələmu aleykum əhlə-ddiyari, minəl-mu'miniynə vəl-muslimiynə, və innə inşə Allahu bikum ləhiqunə, yərhə-mu-L--lahul-mustəqdiminə minnə vəl-mustə'xirinə, nəs'əlu-

---

[1] Hədisi İbn Macə (1412) rəvayət etmişdir.
[2] Hədisi İmam Əhməd "Müsnəd" (1236) əsərində rəvayət etmişdir.

Llahə lənə və ləkumul-afiyə-tə] - «Ey (bu) diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah istəsə biz də sizə qovuşacağıq. Allah bizdən əvvəl gedənlə-rə və qalanlara rəhmət etsin! Allahdan özü-müzə və sizə salamatlıq diləyirik!».

Şübhəsiz ki, qəbirləri ziyarət etməkdə məqsəd axirəti xatırlamaq, ölülər üçün dua etmək və peyğəmbərin - sallallahu aleyhi va səlləm - sünnəsinə tabe olmaqdır. Şəriətə uyğun ziyarət də budur.

Amma qəbirlərinin yanında dua etmək yaxud onların vasitəsilə və ya məqamları xatirinə Allahdan istəmək və bu kimi məqsədlərlə edilən ziyarətə gəlincə, bu, Allahın və Onun rəsulunun, sallallahu aleyhi və səlləm, şəriətə uyğun buyurmadığı və saleh sələflərin etmədiyi pislənilən bir bidətdir. O ki qaldı onlardan ehtiyacların ödənilməsini, xəstələrə şəfa verilməsini və bu kimi şeyləri istəməyə gəldikdə isə bu, böyük şirk növlərindəndir.

Ey əziz oxucu! Tanıyıb və aldanmaqdan çəkinməyin üçün bu mövzuda uydurulmuş bəzi hədisləri diqqətinə çatdırırıq:

Birincisi: “Kim həcc edib, mənin qəbrimi ziyarət etməsə, mənə əzab-əziyyət vermişdir”.

İkincisi: "Kim məni vəfatımdan sonra ziyarət edərsə, məni sağlığımda ziyarət etmiş kimidir".

Üçüncüsü: "Kim eyni ildə məni və atam İbrahimi ziyarət edərsə, Allahın ona Cənnəti bəxş edəcəyinə zəmanət verərəm".

Dördüncüsü: "Kim qəbrimi ziyarət edərsə, şəfaətim ona halal (vacib) olar".

Bu və buna bənzər hədislərin heç biri peyğəmbərdən, sallallahu aleyhi və səlləm, sabit olmayıb. əl-Hafiz əl-Uqeyli demişdir: "Bu mövzuda heç bir səhih hədis yoxdur". əl-Hafiz İbn Həcər isə "ət-Təlxis" kitabında bu rəvayətlərin əksəriyyətini zikr etdikdən sonra demişdir: "Bu hədisin bütün yolları zəifdir". Həcc və ya ömrədən əvvəl yaxud sonra peyğəmbər ﷺ məscidini ziyarət etmək nə həccin və ömrənin sünnələrindən, nə də onları kamilləşdirən əməllərdəndir. Çünki peyğəmbər ﷺ məscidini ziyarət etmək ümumiyyətlə müstəhəb bir əməldir. Həcc və ya ömrə edən kimsə oranı ziyarət etməsə, günah qazanmaz. Həcc və ya ömrə ilə peyğəmbər ﷺ məscidinin ziyarəti arasında heç bir əlaqə yoxdur, çünki bunlar ayrı-ayrı ibadətlərdir. Həcc və ya ömrə edən kimsəyə peyğəmbər ﷺ məscidini ziyarət etmək vacib deyil. Eləcə də, peyğəmbər ﷺ məscidini ziyarət edən kimsəyə həcc və ya ömrə etmək vacib deyil. Əgər bir səfərdə həcc, ömrə və peyğəmbər ﷺ məscidinin ziyarətini cəm edərsə, bunun heç bir eybi yoxdur.

## Məscidun-Nəbəvinin ziyarəti zamanı edilən müxalif əməllər.

Peyğəmbərin, sallallahu aleyhi va səlləm, qəbrini ziyarət edərkən təbərrük məqsədilə (bərəkət ümidi ilə) divarlara və dəmir barmaqlıqlara əl sürtmək, pəncərələrə ip və s. şeylər bağlamaq.

Bərəkət, Allahın və rəsulunun, sallallahu aleyhi va səlləm, buyurduğu şeylərdədir, bidətlərdə deyil.

Uhud dağındakı mağaralara eləcə də Məkədəki "Hira" və "Sovr" mağaralarına getmək, orada parçalar bağlamaq, Allahın izin vermədiyi dualarla dua etmək və bu yolda məşəqqətlərə qatlanmaq.

Bütün bunlar pak İslam şəriətində əsası olmayan bidətlərdir.

Peyğəmbərin, sallallahu aleyhi va səlləm, izləri olduğu iddia edilən dəvənin oturduğu yeri, "uzuk quyusu" və ya "Osman quyusu" kimi yerləri ziyarət etmək və bu yerlərdən təbərrük (bərəkət) ümidi ilə torpaq götürmək.

Bəqi qəbiristanlığını və Uhud şəhidlərinin məzarlarını ziyarət edərkən ölülərə dua etmək, onlara yaxınlaşmaq və orada dəfn olunanlardan bərəkət ummaq məqsədilə qəbir üstünə pul atmaq.

Bunlar böyük xətalardandır və alimlərin qeyd etdiyi kimi, Allahın Kitabı və rəsulunun, sallallahu aleyhi və səlləm, sünnəsi ilə sübuta yetirilən böyük şirk əməllərindəndir. Çünki ibadət yalnız Allaha məxsusdur və onun heç bir növü, o cümlədən: dua

etmək, qurban kəsmək, nəzir demək və s. bu kimi əməllər Allahdan başqasına yönəldilə bilməz. Uca Allah bu barədə belə buyurur:

(وَمَا أُمِرُوا إِلَّا لِيَعْبُدُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ)

"Halbuki onlara, dini məhz Allaha məxsus edib, ibadət etmələri əmr olunmuşdur". (Bəyyinə 98 surəsi, ayə 5).

Ən düzünü Allah bilir. Allahın salatı və salamı peyğəmbərimiz Muhəmmədin, onun ailəsinin və bütün səhabələrinin üzərinə olsun.

# Mündəricat

Məscidun-Nəbəvini ziyarət etməyin ədəbləri və hökmləri haqqında qısa xülasə ........ 2

Məscidun-Nəbəvi ziyarətinin ədəbləri və hökmlərinin xülasəsi ........ 2

Peyğəmbər ﷺ məscidinin ziyarətinin müxtəsər ədəbləri və əhkamları ........ 2

Məscidun-Nəbəvinin ziyarəti zamanı edilən müxalif əməllər. ........ 12

az400v3.0 - 04/09/2026